**AZƏRBAYCAN RESPUBLİKASI ELM VƏ TƏHSİL NAZİRLİYİ**
**AZƏRBAYCAN DÖVLƏT İQTİSAD UNİVERSİTETİ PHŞ**
**UNEC**

# ELMİ ŞURA

**10 OKTYABR 2023-cü il**

# QƏRAR EŞ № 190

**SƏDRLİK ETMİŞDİR** **REKTOR PROF. Ə.C.MURADOV**

**ELMİ KATİB:** **Ə.Ə. MUSTAFAYEVA**

**İŞTİRAK ETMİŞDİR:** Universitetin Elmi Şurasının 50 üzvündən 47 üzvü

## E Ş İ D İ L D İ:

***Tədris üzrə prorektor dos. Gəray Musayev***

*Qaydalar haqqında*

## Q Ə R A R A A L I N D I:

***UNEC-in vəsaiti hesabına tədris vəsaitlərinin nəşr edilməsi Qaydaları*** təsdiq edilsin.

**ELMİ ŞURANIN SƏDRİ** **PROF. Ə.C. MURADOV**

**ELMİ ŞURANIN KATİBİ** **Ə.Ə. MUSTAFAYEVA**

**“TƏSDİQ EDİRƏM”**

Azərbaycan Dövlət İqtisad

Universitetinin rektoru, professor

_______________Ə.C.Muradov

# UNEC-in VƏSAİTİ HESABINA TƏDRİS VƏSAİTLƏRİNİN NƏŞR EDİLMƏSİ QAYDALARI

*UNEC Elmi Şurasının __10 oktyabr__ 2023-cü il*

*tarixli __190__ saylı qərarı ilə təsdiq edilmişdir.*

## 1. ÜMUMİ MÜDDƏALAR

1.1. **"Tədris vəsaitlərinin nəşr edilməsi Qaydaları"** (bundan sonra Qaydalar) UNEC-də dərslik, dərs vəsaitləri, metodiki rəhbərlik və göstərişlərin (bundan sonra tədris vəsaitləri) nəşr məsələlərini tənzimləyir.

1.2. UNEC Nizamnamənin 3.2.6. maddəsinə əsasən ali təhsil səviyyələri üzrə ixtisasların təhsil proqramlarına uygun tədris vəsaitlərinin nəşrini həyata keçirir.

1.3. Tədris vəsaitləri Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi, eləcə də UNEC tərəfindən təsdiq olunmuş fənn kurikulumları (təhsil proqramları) əsasında hazırlanır.

Azərbaycan Respublikası Təhsil Nazirinin "Tədris vəsaitlərinə nəşr hüququ (qrif) verilməsi işinin təkmilləşdirilməsi və müasir tələblərə uyğun tənzimlənməsi" haqqında 8 dekabr 2015-ci il tarixli 1108 nömrəli əmrinə əsasən Elm və Təhsil Nazirliyi tərəfindən yalnız ixtisaslar üzrə təsdiq edilmiş təhsil proqramlarında adları qeyd olunan fənlər üzrə tədris vəsaitlərinə nəşr hüququ (qrif) verilir. UNEC Elmi Metodiki Şurası həmin dərslik və proqramların təhsil proqramlarının və tədris planlarının tələblərinə uyğunluğunu, tələb olunan digər müvafiq sənədlərin (notarial qaydada təsdiq olunmuş ərizə, rəylər, kafedra iclasının, Fakültə Elmi Şurasının iclasının protokolundan çıxarış) düzgünlüyünü yoxlayır, müzakirə edir və tövsiyə qərarı alır, müvafiq sənədlər dərsliyə və proqrama nəşr hüququ verilməsi üçün universitetin məktubu ilə Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinə göndərilir.

Tədris planlarına təhsil müəssisəsi tərəfindən daxil edilən tədris vəsaitlərinə nəşr hüququnun verilməsi səlahiyyəti ali təhsil müəssisələrinin özlərinə həvalə edilmişdir. Bu məqsədlə Elmi Metodiki Şura kafedralar tərəfindən hazırlanan tədris vəsaitlərinin, müvafiq ixtisasların təhsil proqramlarının, tədris planlarının tələblərinə uyğunluğunu, tələb olunan sənədlərin düzgünlüyünü yoxlayır, müzakirə edir və nəşr hüququ verilməsi üçün sənədləri (notarial qaydada təsdiq olunmuş ərizə, rəylər, kafedra iclasının, Fakültə Elmi Şurasının və Elmi Metodiki Şuranın iclasının protokolundan çıxarış) təqdim etməklə Universitetin rəhbərliyi qarşısında vəsatət qaldırır.

1.4. UNEC-in vəsaiti hesabına yalnız Rektor tərəfindən təsdiq edilən İllik Nəşr Planına daxil edilmiş tədris vəsaitləri nəşr edilir.

## 2. TƏDRİS VƏSAİTLƏRİN NÖVLƏRİ

2.1. **Dərslik:** təhsil proqramında və tədris planında nəzərdə tutulan fənnin proqramına tam uyğun sistematik şəkildə izahından ibarət tədris vəsaiti.

2.2. **Dərs vəsaiti:** təhsil proqramında və tədris planında nəzərdə tutulan fənnin proqramına qismən uyğun və ya dərsliyi müvəqqəti əvəz edən tədris vəsaiti.

2.3. **Tədris-metodiki göstəriş və ya rəhbərlik:** tədris edilən fənnin, onun bölməsinin, hissəsinin öyrənməsinə dair materiallardan ibarət tədris vəsaiti.

2.4. **Tədris proqramı:** təhsil proqramlarının tələbləri əsasında fənnin məzmununu təşkil edən bilik, bacarıq, vərdişlərin həcmini, sistemini, ardıcıllığını, tədrisin xarakterini müəyyənləşdirən, fənnin konkret vəzifə və prinsiplərini, bütövlükdə tədris qaydasını və tədris olunmasını müəyyən edən vəsait.

## 3. İLLİK NƏŞR PLANININ FORMALAŞDIRILMASI

3.1.Tədris vəsaitlərinin İllik Nəşr Planına daxil edilməsi alqoritmi:

| | **Fəaliyyətlər** | **Son tarix** |
|---|---|---|
| 1. | Tədris vəsaitinin plan-prospektinin müəllifinin (müəlliflər kollektivinin) ərizəsi ilə birlikdə müvafiq kafedraya təqdim olunması | sentyabr-oktyabr |
| 2. | Tədris vəsaitinin plan-prospektinin kafedrada müzakirəsi nəticəsində iclasın qərarı | oktyabr |
| 3. | Tədris vəsaitinin plan-prospektlərinin fakültə Elmi Şuralarında müzakirəsi nəticəsində Şuranın qərarı | oktyabr-noyabr |
| 4. | Tədris vəsaitinin tədris proqramı uyğunluğu, tədris saatlarına nisbəti, elmi-metodik səviyyəsi, tədris vəsaitinin quruluşu və məzmunu haqqında təhlil və qiymətləndirmə, nəşr olunması barədə qərar (məqsədəuyğun və qeyri-məqsədəuyğun) və s. bu kimi məsələlərinin yoxlanılması və İllik Nəşr Planına | noyabr |

| | | |
|---|---|---|
| | daxil edilməsi məsələsinə EMŞ-da baxılmasına dair Fakültə dekanı tərəfindən UNEC rektoruna təqdimatın verilməsi | |
| 5. | EMŞ tərəfindən nəşr olunması mümkün hesab edilən tədris vəsaitlərinin İllik Nəşr Planına daxil edilməsi məsələsinə UNEC Elmi Şurasında baxılmasına dair UNEC rektoruna təqdimatın verilməsi | dekabr |
| 6. | UNEC rektorunun İllik Nəşr Planı haqqında Əmri | dekabr |

## 4. NƏŞR HÜQUQU VERİLMƏSİ QAYDASI

4.1. Tədris vəsaitlərinə nəşr hüququnun verilməsi üçün tələb olunan sənədlər:

Tədris vəsaitlərinə nəşr hüququnun verilməsi üçün aşağıdakı sənədlər EMŞ təqdim olunur (Əlavə 1):

- tədris vəsaitinin plan-prospekti;
- tədris vəsaitinin əlyazmasının çap və elektron variantları;
- əlyazmasının müzakirə olunduğu kafedra iclasının qərarı;
- Fakültə Elmi Şurasının qərarı;
- əlyazmasına verilmiş 2 müsbət mütəxəssis rəyi (daxili və kənar) (Əlavə 2);
- əlyazmasında başqa əsərlərdən və mənbələrdən qeyri-qanuni istifadə hallarına yol verilməməsi barədə müəllifin (müəllif kollektivinin) notarial qaydada təsdiq olunmuş ərizəsi (Əlavə 3);
- UNEC-in antiplaqiat proqramının arayışı.

4.2. Tədris vəsaitlərinə nəşr hüququnun verilməsi üçün qiymətləndirmə meyarları:

- Eyni mövzuda tədris vəsaiti ilə UNEC-in kitabxanasının təminatı vəziyyəti;
- Son iki il ərzində UNEC tərəfindən eyni mövzuda tədris vəsaitinin nəşr edilib-edilməməsi;
- Son iki il ərzində UNEC tərəfindən eyni mövzuda tərcümə edilmiş kitabın nəşr edilib-edilməməsi;
- Tədris vəsaitinin nəşr edilməsinin iqtisadi səmərəliliyi;
- Təqdim olunan tədris vəsaitindən istifadə edəcək tələbə kontingenti;
- Tədris vəsaitinin aid olduğu fənnin tədris planında perspektivi.

4.3. Nəşr hüququ verilən zaman çap ediləcək nüsxə sayının minimum 35 ədəd olması (kitabın istifadəsinə tələbat yaranarsa nüsxə sayının 50 ədədək artırılması);

4.4. İllik Nəşr planına daxil olmayan tədris vəsaitləri Emli-Metodik Şura tərəfindən müəllifin öz vəsaiti hesabına çapa tövsiyə oluna bilər.

4.5. İllik Nəşr planına daxil edilməyən, digər şəxslərin və təşkilatların maliyyə vəsaitləri hesabına nəşr edilmiş tədris vəsaitlərinin UNEC tərəfindən əldə olunması satınalma qaydasında həyata keçirilə bilər.

4.6. UNEC-in vəsaiti hesabına UNEC-in mətbəəsində nəşr edilən tədris vəsaitlərnin nəşr olunması və eyni zamanda elektron resurslarda yerləşdirilməsi hüququ müəlliflə yanaşı UNEC-ə məxsusdur (Əlavə 4).

## ƏLAVƏLƏR

**Əlavə 1**

NƏŞR HÜQUQU VERİLMƏSİ ÜÇÜN TƏQDİM OLUNACAQ MƏKTUBUN NÜMUNƏSİ

Azərbaycan Dövlət İqtisad Universitetinin "........................................" kafedrasının əməkdaşları tərəfindən "............" – ............ ixtisası üzrə "................." adlı .......... hazırlanmışdır.

Qeyd olunanları nəzərə alaraq, adıkeçən ............ nəşr hüququ (qrif) verilməsi üçün UNEC-in İllik Nəşr Planına daxil edilməsini Sizdən xahiş edirəm.

**Qoşma:** siyahıda göstərilən sənədlərin elektron variantları

**SİYAHI:**

1. Tədris vəsaitinin plan-prospekti
2. UNEC-in ".................................." fakültəsinin Elmi şurasının 20....-ci il ............ tarixində keçirilmiş iclasının ....... saylı protokolundan çıxarış
3. UNEC-in ".................................." kafedrasının 20....-ci il .......... tarixində keçirilmiş iclasının ..... saylı protokulundan çıxarış
4. Daxili mütəxəsis rəyi - "................................" kafedrasının *rəyçinin elmi dərəcəsi, elmi adı A.A.S.*
5. Kənar mütəxəsis rəyi - *qurumun adı* "............................................" şöbəsinin *rəyçinin vəzifəsi rəyçinin elmi dərəcəsi, elmi adı A.A.S.*.
6. Müəllifin notarial ərizəsi
7. Antiplaqiat proqramının hesabatı

**Əlavə 2**

TƏDRİS VƏSAİTİNİN ƏLYAZMASI ÜÇÜN TÖVSİYƏ OLUNAN RƏY FORMASI

**Çıxış məlumatlar:**

1. Tədris vəsaitinin adı
2. Müəllifin soyadı, adı, atasının adı (müəlliflər), elmi dərəcəsi, elmi adı, struktur bölmənin adı və vəzifəsi
3. Tədris vəsaitinin hazırlığının təhsil proqramına və tədris planına uyğunluğu haqqında ixtisas və təhsil səviyyəsində istifadəsi göstərməklə

**Məzmunu:**

1. Tədris vəsaitinin quruluşu və məzmunu haqqında təhlil və qiymətləndirmə
2. Tədris vəsaitinin hazırlığının təhsil proqramına və tədris planına uyğunluğu haqqında, ixtisas və təhsil səviyyəsində istifadəsinin təhlili
3. Əlyazamanın bundan öncə hazırlanmış vəsaitlərdən fərqliliyi və onun üstünlük səviyyəsi
4. Əlyazmanın elmi məzmun səviyyəsi
5. Tədris vəsaitində əhatə olunan praktiki suallar və məsələlər və onların aktuallığı
6. Materialın metodik şərh səviyyəsi, onun müasir tədris texnologiyasında istifadə ölçüsü
7. Qrif verilməsinin məqsədəuyguluğu

***Rəyçi*** ***elmi dərəcə, elmi ad A.A.S.***

***Tarix:*** *"____" ________________20__*

**Əlavə 3**

ƏLYAZMASINDA BAŞQA ƏSƏRLƏRDƏN VƏ MƏNBƏLƏRDƏN QEYRİ-QANUNİ İSTİFADƏ HALLARINA YOL VERİLMƏMƏSİ BARƏDƏ MÜƏLLİFİN (MÜƏLLİF KOLLEKTİVİNİN) NOTARİAL QAYDADA TƏSDİQ OLUNMUŞ ƏRİZƏ NÜMUNƏSİ

Azərbaycan Respublikası

Elm və Təhsil Nazirliyinə

______________________________

*(müəllifin (müəlliflərin) adı və soyadı)*

**Ə r i z ə**

Bildirirəm (bildiririk) ki, Nazirliyə qrif almaq üçün təqdim etdiyim (etdiyimiz) "________________________________________" adlı əlyazmasında başqa əsərlərdən və mənbələrdən qeyri-qanuni istifadə hallarına yol verilməmişdir. Bunun əksi müəyyən olunduğu təqdirdə, verilmiş qrifin və bundan irəli gələn digər hüquq və əldə edilən üstünlüklərin ləğvinə səbəb ola biləcəyindən xəbərdaram.

İmza: ________________

Tarix: ________________

**QEYD:** Bu ərizə notarial qaydada təsdiq edilməlidir.

**Əlavə 4**

Azərbaycan Dövlət İqtisad

Universitetinin (UNEC) rektoru,

Prof. Ə.C. Muradova

___________________________________

*(müəllifin (müəlliflərin) adı və soyadı)*

# Ə R İ Z Ə

Bildirirəm (bildiririk ) ki, müəllifi olduğum (olduğumuz) və "UNEC-in vəsaiti hesabına tədris vəsaitlərinin nəşr edilməsi Qaydaları"nda nəzərdə tutulan və İllik Nəşr Planına daxil edilərək çapa tövsiyə olunan "______________________________" adlı dərsliyin (dərs vəsaitinin) UNEC-in mətbəəsində nəşr olunması və eyni zamanda elektron resurslarda yerləşdirilməsi hüququnun UNEC-ə ötürülməsinə razıyam.

İmza: ___________________

Tarix: ___________________

**QEYD:** Bu ərizə notarial qaydada təsdiq edilməlidir.